12 fevral / 2021

# Vətən üçün doğulmuşdu...

## QARABAĞ DÖYÜŞÇÜSÜ ABDULLA ƏMİROVUN ƏZİZ XATİRƏSİNƏ



Bəşər övladı dünyaya gələndə onun saf və pak olduğunu kimsə inkar edə bilməz. İnsan böyüdükcə həyatı dərk edir, ağı qaradan, yaxşını pisdən, haqqı nahaqdan ayıra bilir. O haqdan söhbət gedir ki, ötən əsrin doxsanıncı illərin əvvəllərində mənfur qonşularımız Vətənimizin ərazi bütövlüyünə göz dikmişdi. Xalqımızın mərd, igid oğulları düşmənin bu istəyinə qarşı birləşdilər. Onlar bu yolda haqlı və ədalətli olduqlarını yaxşı dərk edirdilər. Erməni vandallar öz çirkin, çirkin olduğu qədər də haqsız mövqeyindən çəkinmək istəmirdilər. Vəziyyəti o həddə gətirib çıxartdılar ki, iki xalq arasında qanlı-qadalı müharibə on illərcə davam etdi. Qarabağ müharibəsinin ilk illərində yüzlərlə məğrur Vətən oğlu doğma yurd yerlərimizin müdafiəsinə qalxdı. Onlar düşmənə qarşı haqq savaşına atıldılar. Belə igid döyüşçülərdən biri də mingəçevirli Əmirov Abdulla Vilayət oğlu idi.

Cəngavərliyi boy-buxuna biçilmiş Abdulla Əmirovun keçdiyi döyüş yoluna qısa nəzər salmaq heç də təsadüf deyil. Düz 26 il bundan öncə Ağdərə istiqamətində qızğın döyüşlər gedirdi. Suqovuşan kəndi düşməndən azad edəndən sonra "Babək-44" taboru düşmən mövqelərinin daha dərinliyinə doğru irəliləyirdi. Qarşıdakı "Gödəkburun" yüksəkliyində düşmən lazımınca qüvvə toplayıb igid döyüşçülərimizin qarşısını almağa çalışırdı. Bu döyüşdə Abdullanın göstərdiyi şücaət silahdaşları tərəfindən bu gün də qəhrəmanlıq nümunəsi kimi xatırlanır. Gərgin döyüşdə dostu və həmyerlisi Tofiq Rövşənov şəhid olur. Onun nəşini döyüş meydanından çıxardandan sonra Abdulla yenidən döyüşə atılır. Vətənpərvər, cəsur döyüşçünün fəaliyyətindən ruhlanan digər silahdaşlar da düşmən üzərinə mətinlə irəlilədilər. Məğlubiyyətlə barışmaq istəməyən düşmən bütün qüvvəsini bu istiqamətə cəlb etmişdi. Həmin gün davam edən qızğın döyüşdə Abdulla Əmirov düşmən snayperinin gülləsinə tuş gəlir. Başından aldığı güllə yarası onun sağlamlığına ciddi təsir göstərir.

Abdulla təbiətcə sakit, xoş xasiyyət dostcanlı olmaqla həm keçmiş silahdaşları, həm dostları, həm də yaxın qohumları arasında böyük nüfuza malik idi. Haqqını heç vaxt nahaqa verməz, özü də haqsızlıq etməz və edənlərlə də barışmaz mövqe tutardı. O haqqın, ədalətin tərəfdarı olmadla tanıyanların qəlbinə əbədi yol tapmışdı. Həyat səhifəsi ləkəsiz, ağ vərəq kimi təmiz idi. Məğrur döyüşçümüzün yaralanmasının 26-cı ilinin tamamında aldığım acı xəbər məni də kövrəltdi. Abdulla Vilayət oğlu Əmirov səhhətində uzun müddət davam edən problemlər və ağırlaşmalar nəticəsində dünyasını dəyişdi. Özündən sonra iki ciyərparasını əmanət qoydu.

Mərhum qazimizin dəfnində Azərbaycanın ayrı-ayrı bölgələrində yaşayan silahdaşları, təmsil olunduğu "Qarabağ Əlillərinə Qayğı" İctimai Birliyinin sədri qazi Firidun Məmmədov başda olmaqla, keçmiş döyüşçülər iştirak edirdilər.

Allah vətənpərvər döyüşçü yoldaşımıza rəhmət eləsin. İnanırıq ki, vətənimiz onun azadlığı uğrunda can əsirgəməyən Abdulla Əmirov kimi övladlarını heç zaman unutmayacaq.

**Bəxtiyar ƏLİYEV**